# Taha surəsi, 9-33 (Hz. Mehdi (ə.s)-ın çıxış əlaməti olan böyük atəş, Quranda 33 dəfə təsbehə işarə)

**Adnan Oktarın 18 mart 2010-cu il HarunYahya.TV-dəki reportajından**

**ADNAN OKTAR:** Şeytandan Allaha sığınıram. "Necə ki ona gedincə,"- Şeytandan Allaha sığınıram. *"Sənə Musanın xəbəri gəldimi?" 9-cu* ayə. *"Hanı bir atəş görmüşdü, ailəsinə belə demişdi: "Dayanın bir atəş gördüm; ümid edilir ki, sizə ondan bir köz gətirərəm və ya atəşin yanında bir yol göstərən taparam".* Biz də atəşin yanında Axırzamanda kimi tapdıq, tapacağıq? Mehdi (ə.s)-ı, deyilmi? Atəş, böyük bir atəş Mehdi (ə.s)-n çıxış əlamətidir. Mehdi (ə.s) də yol göstəricidir. *"Necə ki ona gedincə, ona səslənildi: Ey Musa. Həqiqətən, Mən" yenə "Mən sənin Rəbbinəm. Ayaqqabılarını çıxart; çünki sən, müqəddəs vadi olan Tuvadasan".* Müqəddəs vadi Tuva. Orada ayaqqabılarını çıxarır. *"Mən səni seçmişəm, bundan sonra vəhy olunanı dinlə. Həqiqətən Mən, Mən Allaham, Məndən başqa İlah yoxdur".* Baxın, buradakı ifadə çox mənalıdır. *"Mən, Mən" Allah iki dəfə təkrarlayır. "Mən Allaham". "Məndən başqa İlah yoxdur; bu halda Mənə ibadət et və Məni zikr etmək üçün doğru namaz qıl. Şübhəsiz, qiyamət saatı yaxınlaşaraq gəlməkdədir".* Madam sən bu qapını açdın mən sənə söyləyim məsələn, 15-ci ayə, hicri 1545-dir, deyilmi Qiyamətin qopacağı tarix. Hicri 1500-ə diqqət çəkir.

**ALTUĞ BERKER:** Bir üstdəki də "seçilən" 14-cü ayədir, hocam.

**ADNAN OKTAR:** "Şübhəsiz, qiyamət saatı yaxınlaşaraq gəlməkdədir". Bax, Qiyamətə diqqət çəkilir. *"Hər kəsin etdiyi səyin qarşılığını alması üçün, onun (qaçıb xəbərini) az qala gizləyəcəyəm".* Qiyamətin xəbərini gizləyəcəyəm. Allah qeybi kimə açıqlayar? Peyğəmbərlərə açıqlayır. Əlbəttə ki, qeyb gizlidir. Amma Allah Peyğəmbərlərinə açıqlayır. Hz. Musa (ə.s): *"Dedi ki: Rəbbim, mənim sinəmi aç" deyir.* Həyəcanlıdır, həm təzyiqi yüksəlir, həm də ürəyi də tez-tez döyünür. Yəni taxikardiya var, həm də təzyiqi də yüksəlmiş ola bilər. *"İşimi asanlaşdır. Dilimdən düyünü aç".* O gözəllər gözəli, o aslanlar aslanı çox həyəcanlı olduğu üçün  ki, hz. Musa (ə.s) çox dayanıqlı idi, müdhiş qüvvətli idi. *"Dilimdən düyünü aç".* Həyəcanlandığı üçün, çox həyəcanlı olduğu üçün danışa bilmir. Dili açılır. Mehdi (ə.s)-ın da xüsusiyyətidir. Mehdi (ə.s) çox həyəcanlandığında danışa bilməz. *"Ki söyləyəcəklərimi qavrasınlar. Ailəmdən mənə bir köməkçi ver, qardaşım Harunu. Onunla məni qüvvətləndir. Onu işimdə ortaq et. Beləcə, Səni çox təsbeh edək".* Tək getmir, bax. Bax; *"Beləcə, Səni çox təsbeh edək".*

Berkerim, madam bu qapını açdın dedim sənə, deyilmi?

**ALTUĞ BERKER:** İnşaAllah.

**ADNAN OKTAR:** 33-cü ayə nə gəlir ağlına?

**ALTUĞ BERKER:** Hz. İsa (ə.s) gəlir, inşaAllah.

**ADNAN OKTAR:** İkinci olaraq düşün. Təsbehdə neçə dəfə Əlhəmdülillah deyirik?

**ALTUĞ BERKER:** 33 dəfə.

**ADNAN OKTAR:** 33 dəfə Sübhanallah, Allahu Əkbər, deyilmi? 33-cü ayədir. *"Beləcə, səni çox təsbeh edək".* 33 dəfə təsbeh edilir, deyilmi? Hər Allahın adı 33 dəfə təsbeh edilir. Cəmi 99-dur.*"Və Səni çox zikr edək. Şübhəsiz, Sən bizi görürsən".* Allaha yəni bu anda bizi görürsən deyir. Allaha elə səslənir. *"Dedi ki: Ey Musa, istədiyin sənə verilmişdir. And olsun, Biz sənə bir dəfə də lütf etmişdik".* Daha əvvəlkini də Allah xatırladır, lütfüm ilk dəfə deyil deyir. *"Anana vəhy olunan şeyi vəhy etmişdik, (belə ki:) Onu sandığın içinə qoy, suya burax, beləcə, su onu sahilə buraxsın".* Mehdi (ə.s) hara gələcək? Sahilə gələcək, deyilmi? Bir kənara gələcək. Mehdi (ə.s)-ın fəaliyyət yeri də su kənarındadır. "Onu Mənim də düşmənim, onun da düşməni olan biri götürəcək". Yəni Allah Firon sisteminin, dəccali sistemin, düşüncənin içində mübarizə edəcək deyir, ona işarə edir. *"Gözümün qarşısında yetişdirilməyin üçün, Özümdən sənə bir sevgi yönəltdim". Hz. Musa (ə.s) seviləcək bir insan olacaq. "Səni anana geri qaytarmış olduq ki, gözü aydın olsun və kədərlənməsin".* Deməli, anası kədərlənəcək. Baxın, hz. Musa (ə.s)-ın anası kədərlənəcək. Allah bunu durduq yerə söyləməz . Bir şey vardır, bir şey

izah edilir. Yəni anası kədərlənəcək biri vardır. Bir şey izah edilmişdir. Allah *"Sonra bir qədər ilə (bura) gəldin, ey Musa" deyir.*

https://www.harunyahya.info/az/meqaleler/taha-suresi-9-33-hz-mehdi-es-in-cixis-elameti-olan-boyuk-ates-quranda-33-defe-tesbehe-isare